INSAN HAQLARI

# 'QHT işi' üzrə daha bir hökm. 'Kitablardan oxuduqlarım bu gün başıma gəlir'

indicə




'Hüquqi əsaslandırması yoxdur' - QHT-lərlə bağlı cinayət işləri niyə yenidən başladılıb?

Gəncə Regional İcma Mərkəzinin rəhbəri **Asəf Əhmədov**a 8 il həbs cəzası kəsilib. İyunun 17-də Gəncə Ağır Cinayətlər Məhkəməsində ona hökm oxunub. Hakim Elşən Vəliyevin sədrliyilə çıxarılan hökmə görə, A.Əhmədov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, cinayət yoluyla əldə edilən vəsaitləri leqallaşdırma, vəzifə saxtakarlığı kimi əməllərdə təqsirli bilinib. Cinayət işində iddia olunur ki, o, aldığı qrantları Ədliyyə Nazirliyində qeydiyyatdan keçirməyib. Bu üzdən həmin vəsaitlər cinayət yoluyla əldə edilən əmlak kimi qiymətləndirilib.

Tarix müəllimi A.Əhmədov Baş Prokurorluqda 2025-ci ilin fevralında qeyri-hökumət təşkilatlarıyla bağlı cinayət işinin icraatı təzələnəndən sonra həbs olunan vətəndaş cəmiyyəti fəallarından biridir. Özü də iyunun 17-də hökmdən öncə məhkəmədə deyib ki,

ortada heç bir cinayət yoxdur. Həbsinin məqsədi vətəndaş cəmiyyətinin inkişafına çalışan daha bir adamı susdurmaqdır.

**“Tarix boyu fərqli düşüncə sahiblərini və ziyalıları müxtəlif qondarma ittihamlarla mühakimə ediblər. Tarixçi olduğum üçün məhkəmə zalında baş verənlər mənə çox tanışdır. Vaxtilə kitablardan oxuduğum hadisələr bu gün mənim başıma gəlir”,** - A.Əhmədov məhkəmədə son sözündə belə deyib.

Vaxtilə Sokratdan tutmuş, Hüseyn Cavidədək bir çox ziyalıların repressiya qurbanı olduğunu yada salan ictimai fəal vurğulayıb ki, tarixdə bu adamları nahaqdan mühakimə edən hakimlər, prokurorlar yox, onların özləri qaldı. O, ədalətin tez-gec bərqərar olacağına əminliyini ifadə edib.



BUNA DA BAX:

Məmməd Alpay: 'USAID işi üzrə həbs olunduq, sonra ittihamlar dəyişdirildi'

A.Əhmədov əlavə edib ki, 8 ay davam edən məhkəmə prosesində ona qarşı irəli sürülmüş ittihamların heç biri sübut olunmadı. Əksinə, heç bir cinayət törətmədiyi halda, 2025-ci ilin aprelindən həbsdə saxlandığı aydınlaşdı.

O, çıxışının sonunda hakimlərdən hüquqi cəsarət nümayiş etdirmələrini, vicdanlı davranmalarını və təqsirsizi cəzalandırmamağı istəyib.

Bu çıxışdan sonra müşavirəyə gedən hakimlər kollegiyası bir neçə dəqiqə sonra geri qayıdaraq, 8 illik həbs hökmünü elan edib.

## Xatırlatma

Azərbaycanda QHT-lərlə bağlı 2014-cü ildə başlanmış cinayət işinin icraatı 2022-ci ildə dayandırılıb. 2025-ci ilin fevralında Baş Prokurorluq icraatı təzələyib, beynəlxalq donor təşkilatlarla əməkdaşlıq etmiş vətəndaş cəmiyyəti fəalları cinayət məsuliyyətinə cəlb olunub. Onlardan 5 nəfər həbs edilib, 10-a yaxın vətəndaş cəmiyyəti fəalı haqqında isə alternativ qətimkan tədbiri seçilib, daha 2 nəfər isə axtarışa verilib.

Həbs olunanlar arasında Vətəndaş Hüquqları İnstitutunun rəhbəri **Başir Süleymanlı**, “Ubuntu” Sosial İş Assosiasiyası təşəbbüs qrupunun rəhbəri **Zamin Zəkiyev**, Seçki

Müşahidə Alyansının icraçı direktoru **Məmməd Alpay (Məmmədzadə)** və ictimai fəal **Əhməd Məmmədzadə** də var.

Həbsdə olan QHT təmsilçilərindən Z.Zəkiyevin məhkəməsi yekunlaşıb, ona 7 il 6 ay həbs cəzası kəsilib. Digərlərinin məhkəməsi isə davam edir.

Barəsində alternativ qətimkan tədbiri seçilmiş fəallardan Aygül Pəncəliyeva, Asiman Qocayevə isə şərti cəza verilib. Digərlərinin mühakiməsi isə hələ də gedir.

Təqsirləndirilən QHT təmsilçiləri ittihamları qəbul etmirlər, heç bir cinayət törətmədiklərini bildirirlər.

## Buna da bax:


'Azərbaycanda heç kim mənə rüşvət verməyə cəsarət edə bilməzdi'

7 il 6 ay cəza kəsilən ictimai fəal: 'Fəaliyyətimdə qanunsuz addım olmayıb, əksinə, faydalı olub'

Nərgiz Muxtarova: 'Qrup halında cinayətdə ittiham olunuramsa, digərləri kimlərdir?'


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur